*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 416-422*

https://doi.org/10.62837/2025.4.416

**NURANƏ MIRZƏYEVA ŞIXƏLI QIZI**
**Bakı Avrasiya Universitetinin magistrantı**
**Nuranmirzyeva862@gmail.com**

# ALEKSANDR DÜMANIN HƏYAT VƏ YARADICILIĞI

## XÜLASƏ

Aleksandr Düma (1802–1870) XIX əsr Fransız ədəbiyyatının ən məhsuldar və məşhur yazıçılarından biri hesab olunur. Napoleon ordusunda general olmuş qaradərili ata və fransız anadan doğulan Düma, erkən yaşlarından sosial və iqtisadi çətinliklərlə üzləşmişdir. Parisə köçdükdən sonra yazıçılıq və dramaturgiya sahəsində fəaliyyətə başlayan Düma əvvəlcə pyeslər yazsa da, sonradan roman janrına üstünlük vermişdir. Onun "Qraf Monte Kristo", "Üç muşketyor" kimi əsərləri dünya ədəbiyyatında macəra janrında yazılmış möhtəşəm klassik nümunələr sayılır.

Düma tarixi mövzulara böyük maraq göstərmiş, tarixi hadisələri bədii təxəyyül ilə birləşdirərək cəlbedici hekayələr yaratmışdır. O, romantizm və realizm elementlərini ustalıqla birləşdirərək qəhrəmanlıq, ədalət, intiqam və dostluq mövzularını ön plana çəkmişdir. Əməkdaşlıq etdiyi Auqust Maquet ilə bir çox əsərlər ərsəyə gətirmişdir. Yazıçı yalnız bədii əsərlərlə deyil, həm də səyahətnamələri ilə tanınır; "Qafqaza səyahət", "İtaliyaya səyahət", "Rusiyaya səyahət" kimi 20-ə yaxın əsərində müxtəlif ölkələrin mədəni və sosial həyatını təsvir etmişdir.

Dümanın yaradıcılığı həm janr müxtəlifliyi, həm də zəngin ideya dərinliyi ilə seçilir. O, azadlıq, ədalət və başəri dəyərləri təbliğ edən əsərləri ilə oxuculara ilham verir və bu gün də aktual qalır. Onun bədii irsi zaman və məkan sərhədlərini aşaraq dünya ədəbiyyatına mühüm təsir göstərmişdir.

**Açar sözlər:** Aleksandr Düma, XIX əsr Fransız ədəbi mühiti, Aleksandr Dümanın janr əhatəsi, Düma və Fransa tarixi

Fransız ədəbiyyatının ən məhsuldar və oxunaqlı yazıçılarından biri olan Aleksandr Düma (Alexandre Dumas père) 24 iyul 1802-ci ildə Fransanın Villers-Cotterêts şəhərində anadan olmuşdur. Atası Napoleonun ordusunda general olmuş Tomas-Aleksandr Düma idi. Qara dərili bir atanın və fransız ananın övladı olaraq Düma, qarışıq mənşəyə sahib idi və bu, onun həyatında sosial təzyiqlərə məruz qalmasına səbəb olmuşdur. Erkən yaşlarında atasını itirməsi, ailəsinin maddi vəziyyətinin ağırlaşmasına gətirib çıxarmış, lakin o, təhsilini davam etdirməyə və özünü inkişaf etdirməyə çalışmışdır [ 12; 45].

Dümanın anası Mari-Lüzi Elizabet Labure köhnə mehmanxana sahibinin qızı olmuşdur. Həyat yoldaşı vəfat etdikdən sonra o, böyük çətinliklərlə övladlarını böyütmüşdür.

Atasız böyüyən Düma anasından da bir o qədər maddi dəstək ala bilməmişdir. Buna səbəb anasının həm xəstə olması, həm də maddi durumunun yaxşı olmaması idi.

Təhsil almağa pulu olmasa da, özü kitablara, elmə maraq göstərmişdir. Hələ uşaq vaxtı anası ona atasının Napaleon ordusunda göstərdiyi şücaətlərdən söz açar, onun necə bir qəhrəman olduğu haqqında ona danışardı. Bütün bunlar Dümaya təsirsiz ötüşmür.

Şəxsi həyatı ilə bağlı müxtəlif söyləntilər, mənbəyi dəqiq olmayan bir çox məlumatlar mövcuddur. Lakin məhz Dümanın həyatını araşdıran Alin Arnod, Klod Şhopp öz elmi araşdırmalarında bir çox məlumatları təsdiq etməmişdir.

Qeyd olunur ki, Dümanın adı çəkilən beş uşağı vardır: Aleksandr Düma (oğul) (1824-1894), Marie-Alüksandrina (1831-1878), Mişel Jozefa Kardier (1860-1936), Aleksandrina de Fernand(1859-1888), Henri-Françie Bayer(1851-1915) [15]

Aleksandr Düma olduqca məhsuldar bir yazıçı idi: o, həyatının bütün dövrünü demək olar ki, mövcud olan bütün janrlarda yazmaqla keçirmişdi. O, səyahət etmiş, inqilablarda iştirak etmiş, Avropanın əsas dillərində olan böyük ədəbi klassikləri oxumuş və bütün bu təcrübələri cəlbedici hekayələr şəklində yenidən qələmə almışdı. Düma pyeslər, esselər, şeirlər, romanlar, səyahətnamələr, memuarlar, çıxışlar, aşpazlıq kitabları, tərcümələr, uyğunlaşdırmalar və daha nələr-nələr yazmışdı… siyahını sonsuz adlandırmaq olar. Dümanın oxuduğu, ona ilham verən, haqqında yazılan və ondan ilhamlanan bütün əsərləri toplamaq mümkün deyil. Bu səbəbdən mənim kolleksiyam əsasən Dümaya hekayəçi kimi yanaşır.

Fransız dilində “histoire” sözünün iki mənası var: “hekayə” və “tarix”. Düma bu iki anlayışın bir-birinə nə qədər bağlı olduğunu dərk edirdi. O, tarixin ən gözəl hekayələrin mənbəyi olduğunu düşünürdü və onun ən məşhur bədii əsərləri məhz tarixə əsaslanır. Düma qeyri-bədii əsərlərində belə (məqalələr, esselər, xatirələr və s.) hadisələri bir hekayəçi tərzində yazaraq, danışdığı hadisə və insanları oxucunun gözündə canlandırırdı. Onun tarix haqqında dərin bilikləri vardı və bu bilikləri birbaşa qaynaqlardan – Pyer dö l’Estuval, Marqerit dö Valua və Pyer dö la Port kimi fransız tarixçilərinin xatirələri və gündəliklərindən öyrənmişdi. O, eyni zamanda çox savadlı və geniş mütaliəli idi – Uilliam Şekspir, Yohan Volfqanq Göte, Fridrix Şiller, Jan Batist Molyer, Valter Skott və digər böyük yazıçıların əsərlərinə dərindən bələd idi və bu biliklər onun hekayələrinə sirayət etmişdi. O, tarixi bir nağıl kimi dirildirdi və nağılları oxuduğu dahi yazıçılar qədər ustalıqla danışırdı. Düma həm sağlığında, həm də ölümündən sonra bir çox yazıçıya onun hekayələrinə uyğunlaşdırmalar, davam hekayələri, öncül romanlar yazmağa və ya həmin hadisələri fərqli personajların gözü ilə təqdim etməyə ilham verdi.[14].

Qeyd etməliyik ki, Düma ailə bağlarına möhkəm bağlı ata olmamışdır. Hətta övladlarından müəyyən zamanlarda imtina da etmişdir. Böyük oğlu anadan olduqdan sonra onu qəbul etməmiş, lakin bir yazıçı kimi məhşurlaşdıqdan sonra ona öz adını

vermişdir. Alin Arnod (Alain Arnaud) bu haqda qeyd edir: "1822-*ci ildə Düma (ata) Parisə gələndə, İtaliyalılar meydanında kiçik bir otaqda yaşayırdı. O zaman iyirmi yaşı var idi və tezliklə qonşusu, gənc dərzi qızı Mari Katerin Laur Labay ilə münasibət qurdu. 1824-cü il iyulun 27-də onların bir oğlu dünyaya gəldi, ona Aleksandr adı verildi (anası körpəyə atasının adını vermək istədi; bu ad həmçinin babası, general Tomas Aleksandr Dumanın ikinci adı idi). Lakin uşaq "atası naməlum" kimi qeyd edildi. Çünki özünü hələ çox gənc hesab edən Duma onu rəsmi olaraq tanımaq istəmədi. Bu isə oğlan üçün ilk və ciddi emosional tarazsızlıq mənbəyi oldu – o, qeyri-qanuni uşaq statusunda böyüməyə məcbur qaldı"* [10; 186].

Düma gənc yaşlarında Parisə köçmüş, burada yazıçı və dramaturq kimi fəaliyyətə başlamışdır. Əvvəlcə teatr üçün pyeslər yazsa da, 1840-cı illərdən etibarən roman janrına yönəlmişdir. Onun yazı üslubu sürətli hadisə inkişafı, kəskin dramatizm və tarixi faktların bədii təxəyyüllə uzlaşdırılması ilə seçilir. "Üç muşketyor" (Les Trois Mousquetaires, 1844) və "Qraf Monte Kristo" (Le Comte de Monte-Cristo, 1844–1846) kimi əsərləri dünya ədəbiyyatının klassik nümunələri sırasına daxildir. Bu romanlar təkcə Fransada deyil, Avropanın müxtəlif ölkələrində də böyük maraqla qarşılanmışdır [ 2; 27].

Aleksandr Düma (ata) ilk növbədə qoyub getdiyi irsin zənginliyi ilə diqqət çəkir. Hesablamalara görə, onun ədəbi irsi yüz min sözdən ibarətdir. Burada üç yüzə yaxın əsər yer almaqdadır. Yaradıcılığının ilk dövründə daha çox dram əsərləri ilə tanınan Düma, Cəlil Nağıyevin də qeyd etdiyi kimi, zamanla Fransanın ən tanınmış roman ustalarından birinə çevrilməyi bacarmışdır [3; 224]. Onun gənclik illərində Fransada romantizm aparıcı ədəbi cərəyan olduğu üçün bu, Dümanın da yaradıcılığından yan keçməmişdir.

Dümanın yaradıcılığı tarixi mövzularla da diqqət çəkir. O, keçmiş əsrlərdə baş vermiş hadisələri canlı şəkildə təsvir etməyi bacarırdı. Əsərlərində qəhrəmanlıq, ədalət, intiqam, dostluq və sevgi kimi mövzular ön planda dayanır. Onun qəhrəmanları adətən idealist, cəsur və prinsipial obrazlardır ki, bu da romantizm estetikası ilə üst-üstə düşür. Lakin Dümada realizm elementlərinə də tez-tez rast gəlinir; o, xüsusilə insan psixologiyasını və cəmiyyətin sosial təbəqələşməsini ustalıqla əks etdirir. O, "III Henrix və onun sarayı" dramından dərhal sonra "Antoni" dramını oxuculara təqdim edir. Bu əsərdə İyul inqilabının təsirini duymamaq mümkün deyildir. Dramaturq burada özünün respublika üçün döyünən ruhunu da əks etdirmişdir. Bu əsərdə eyni zamanda Fransa yüksək zümrəsini açıq tənqid edildiyi üçün böyük maraqla qarşılanmışdı. Belə ki, əsərə qarşı şiddətli reaksiya Parisin yüksək zümrəsinin onlara ünvanlanmış bütün tənqidlərin hədəfinə çevrilməsi ilə bağlı idi. Belə ki, əsərin mövzusu və süjet xətti heç də sətiraltı qeydlərə yox, açıq işarələrə əsaslanırdı.

Aleksandr Dümanın yaradıcılığının daha bir özəlliyi onun əməkdaşlıq etdiyi köməkçilərlə – xüsusən də Auqust Maquet ilə birlikdə işləməsidir. Maquet bir çox

romanın süjet strukturunun qurulmasında iştirak etsə də, son redaktə və üslub Dümanın idi. Buna görə də bu əməkdaşlıq mübahisələrə yol açmış və zaman-zaman ədəbi əxlaq məsələləri çərçivəsində müzakirə olunmuşdur [11;202].

Düma yalnız yazıçı deyil, həm də ictimai şəxsiyyət idi. O, dövrünün siyasi hadisələrinə biganə qalmamış, 1848-ci il inqilabında fəal iştirak etmiş, daha sonra İtaliyaya gedərək Qərbi Avropada milliyyətçilik ideyalarını müdafiə etmişdir. Həmçinin, o, səyahət etməyi sevmiş və bu səfərlərindən bəhs edən qeydləri də yazmışdır.

Yaradıcılığı boyu Aleksandr Düma minlərlə səhifəlik romanlar, pyeslər və memuarlar yazaraq bədii ədəbiyyata böyük töhfə vermişdir. O, 5 dekabr 1870-ci ildə vəfat etmiş və bir müddət sonra onun əhəmiyyətli irsi daha da dəyər qazanaraq klassik səviyyəyə yüksəlmişdir. 2002-ci ildə – onun 200 illik yubileyi münasibətilə – Fransa hökuməti Aleksandr Dümanın qalıqlarını Panteona köçürərək onu rəsmi olaraq milli qəhrəman kimi tanımışdır.

Məlumdur ki, Aleksandr Düma yalnız məhsuldar yazıçı kimi deyil, həm də bir çox ölkələri gəzib görmüş səyyah kimi tanınır. Onun bu səfərlərinin əsas məqsədi sadəcə yeni yerləri kəşf etmək deyil, həm də bu təəssüratları geniş oxucu kütləsinə çatdırmaq olmuşdur. Bu səbəbdən o, səyahət qeydlərini əhatə edən və "Xatirələr" (Memories) adlanan xüsusi ədəbiyyat janrının əsasını qoymuşdur. Bu silsiləyə daxil olan əsərlər iyirmidən çox romanı əhatə edir və onların hər biri orta hesabla 200-250 səhifəlik həcmdədir. Həmin yazılarda Düma ziyarət etdiyi ölkələrin mədəni həyatı, gündəlik məişəti, tarixi şəraiti və sosial-siyasi mənzərəsini geniş şəkildə təsvir etmişdir.

Tədqiqatçı Hökumə Abbasova bu barədə qeyd edir: "*XIX əsrin məşhur fransız yazıçısı Düma tarixdə həm də səyyah kimi tanınıb. Belçika, İsveçrə, İtaliya, Rusiya və Qafqaz da daxil olmaqla, bir sıra ölkə və bölgələrdə olmuş, gördüklərini öz əsərlərində ustalıqla əks etdirmişdir. Onun səyahət mövzusunda yazdığı təxminən 20-yə yaxın əsəri mövcuddur*" [1; 13].

Dümanın bu səpkidə ən çox tanınan əsərləri sırasında "Rusiyaya səyahət" (1858), "İspaniyaya səyahət" (1847), "İtaliyaya səyahət" (1843), "Qafqaza səyahət", eləcə də "Qar yığını" və "Sultanetta" romanları yer alır. Bu əsərlərdə müəllif səyahət etdiyi ölkələrin adət-ənənələrini, gündəlik yaşayışını, geyim və zinət əşyalarını, həyat tərzini ətraflı şəkildə təsvir edir və onları Fransa ilə müqayisə edir. Xüsusilə "Qafqaza səyahət" əsərində müəllifin Azərbaycana dair müşahidə və təəssüratları əsas yer tutur.

Aleksandr Düma dünya ədəbiyyatının tanınmış klassiklərindən biri olmaqla yanaşı, romantik-macəra janrının əsas banilərindən hesab olunur. Onun yaradıcılığı XIX əsr Fransız ədəbiyyatında yeni bir mərhələ təşkil etmiş, bədii təxəyyül və tarixi hadisələrin uğurlu vəhdəti ilə seçilmişdir. Dümanın əsərləri hadisələrin sürətli inkişafı, dramatik qarşıdurmalar və canlı xarakterlərlə zəngindir. Yazıçının yaratdığı

obrazlar – cəsur, fədakar və ədalət uğrunda mübarizə aparan qəhrəmanlar – oxuculara ilham verir. Onun ədalət, azadlıq və dostluq kimi ümumbəşəri idealları təbliğ edən əsərləri bu gün də aktuallığını itirməmişdir.

"Qraf Monte Kristo", "Üç muşketyor", "Qara zanbaq" kimi əsərləri dünya miqyasında böyük şöhrət qazanmış, müxtəlif dillərə tərcümə olunmuş və saysız-hesabsız ekranlaşdırmalarla daha geniş auditoriyaya çatdırılmışdır. Dümanın bədii irsi zaman və məkan sərhədlərini aşaraq, müxtəlif xalqların və mədəniyyətlərin ədəbiyyatına təsir göstərmişdir.

Onun toxunduğu əsas mövzular – azadlıq uğrunda mübarizə, ədalətin bərpası, dostluq və vəfa – istənilən dövrün oxucusu üçün maraqlı və düşündürücüdür. Dümanın qəhrəmanları idealist olmaqla yanaşı, daxili sarsıntılarla mübarizə aparan real insanlardır. Məhz bu səbəbdən Aleksandr Dümanın adı dünya ədəbiyyatında daim yaşayacaqdır.

## Ədəbiyyat siyahısı

1. Abbasova, H. Fransız ədəbiyyatında səyyah yazıçı fenomeni: Aleksandr Dümanın "Qafqaz səfəri" əsəri nümunəsində. Bakı: Elm və Təhsil, 2014, 156 s.
2. Bell, M. Aleksandr Dümanın həyatı. London: HarperCollins, 1999, 117 s.
3. Cəlil Nağıyev. Klassik fransız ədəbiyyatından yeddi portret. Bakı: Elm və Təhsil, 248 s.
4. Düma, A. Səyahət təəssüratları: İtaliya (Impressions de voyage: Italie). Paris: Michel Lévy Frères, 1843, 348 s.
5. Düma, A. Səyahət təəssüratları: İspaniya (Impressions de voyage: Espagne). Paris: Michel Lévy Frères, 1847, 402 s.
6. Düma, A. Rusiyaya səyahət (Voyage en Russie). Paris: Michel Lévy Frères, 1858, 295 s.
7. Düma, A. Qafqaz (Le Caucase). Paris: Michel Lévy Frères, 1859, 321 s.
8. Düma, A. Qar yığını (La Boule de Neige). Paris: Michel Lévy Frères, 1851, 267 s.
9. Düma, A. Sultanetta. Paris: Michel Lévy Frères, 1853, 198 s.
10. Arnod, A. Aleksandr Düma: Həyat və ədəbiyyat dahisi (Alexandre Dumas: Genius of Life and Letters). Paris: Gallimard, 2002, 376 s.
11. Hemmings, F. V. C. . Aleksandr Düma: Romantikanın Kralı. 1979 London: Veydenfeld və Nikolson. – 256 səh.
12. Morois, A. Titanlar: Dümalardan ibarət üç nəsil bioqrafiyası (The Titans: A Three-Generation Biography of the Dumas). London: Jonathan Cape, 1964, 412 s.
13. Şopp, K. Aleksandr Düma. 1986, Paris: Fayard, 642 səh.
14. https://sg.docworkspace.com/d/sIFHyuNuxAte948AG?lg=en-US&sa=601.1074&ps=1&fn=2011_2nd_yr_winner.pdf
15. https://www.lunion.fr/id212079/article/2020-12-02/150-ans-de-la-mort-de-dumas-son-portrait-entre-passion-genie-et-demesure-serie

**НУРАНА МИРЗАЕВА ШИХАЛИ КЫЗЫ**

**ЖИЗНЬ И ТВОРЧЕСТВО АЛЕКСАНДРА ДЮМА**

**РЕЗЮМЕ**

Александр Дюма (1802–1870) считается одним из самых плодовитых и известных писателей французской литературы XIX века. Родившийся в семье чернокожего генерала наполеоновской армии и француженки, Дюма с ранних лет столкнулся с социальными и экономическими трудностями. Переехав в Париж, он начал свою карьеру в качестве драматурга, но позже отдал предпочтение жанру романа. Его произведения, такие как «Граф Монте-Кристо» и «Три мушкетера», являются выдающимися классическими образцами приключенческого жанра мировой литературы.

Дюма проявлял большой интерес к историческим темам, умело сочетая исторические события с художественным вымыслом, создавая увлекательные сюжеты. Он мастерски объединил элементы романтизма и реализма, подчеркивая темы героизма, справедливости, мести и дружбы. Совместно с Огюстом Маке он создал множество произведений. Писатель также известен своими путевыми заметками; в таких произведениях, как «Путешествие на Кавказ», «Путешествие в Италию», «Путешествие в Россию» и других, он описывает культурную и социальную жизнь разных стран.

Творчество Дюма отличается жанровым разнообразием и глубиной идей. Пропагандируя свободу, справедливость и общечеловеческие ценности, его произведения вдохновляют читателей и остаются актуальными по сей день. Его литературное наследие преодолело границы времени и пространства, оказав значительное влияние на мировую литературу.

**Ключевые слова**: Александр Дюма, французская литература XIX века, жанровое разнообразие, Дюма и история Франции.

**NURANƏ MIRZAYEVA SHIKHALI GIZI**

**THE LIFE AND WORK OF ALEXANDRE DUMAS**

**ABSTRACT**

Alexandre Dumas (1802–1870) is regarded as one of the most prolific and famous writers of 19th-century French literature. Born to a Black general of Napoleon’s army and a French mother, Dumas faced social and economic hardships from an early age. After moving to Paris, he began his career as a playwright, later turning to novel writing. His works such as The Count of Monte Cristo and The Three Musketeers are celebrated as outstanding classics in the adventure genre of world literature.

Dumas had a deep interest in historical subjects, skillfully blending real historical events with fiction to create captivating stories. He combined elements of

Romanticism and Realism, emphasizing themes like heroism, justice, revenge, and friendship. He collaborated with Auguste Maquet on many of his works. Besides fiction, Dumas was also known for his travelogues; in nearly 20 works like Journey to the Caucasus, Journey to Italy, and Journey to Russia, he depicted the cultural and social life of various countries.

Dumas’s literary output stands out for its genre diversity and thematic richness. Promoting liberty, justice, and human values, his works continue to inspire readers and remain relevant today. His literary legacy transcends the boundaries of time and place, leaving a significant mark on world literature.

**Keywords**: Alexandre Dumas, 19th-century French literary scene, genre diversity in Dumas’s works, Dumas and French history.

**Rəyçi: professor Seyfəddin Rzasoy**